**UOT: 75**
https://doi.org/10.59849/2409-4838.2026.2.35

# NAXÇIVAN MEMARLIQ ABİDƏLƏRİ CAVİD İSMAYILOV YARADICILIĞINDA

**Şəmsiyyə Şəmsəddin qızı Zalova**
AMEA-nın Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Naxçıvan, Azərbaycan
wems.zal@mail.ru

*Azərbaycan təsviri sənətinin müasir mənzərəsi janr və üslub axtarışlarının rəngarəngliyi, eləcə də milli ənənələrin yeni konseptual yanaşmalarla sintezi baxımından olduqca zəngindir. Bu inkişaf prosesində fərdi yaradıcılıq üslubu və mövzu genişliyi ilə seçilən sənətkarlardan biri də Naxçıvan Muxtar Respublikasının Əməkdar Rəssamı Cavid İsmayılovdur. Rəssamın yaradıcılığı portret, mənzərə, məişət və batal kimi müxtəlif janrları əhatə etməklə, müasir Azərbaycan rəngkarlıq məktəbinin çoxşaxəli fəaliyyətini özündə təcəssüm etdirir.*

*C.İsmayılovun sənət fəlsəfəsinin əsasını xalqın tarixi yaddaşına və milli kimliyinə bağlılıq təşkil edir. Onun firçasından çıxan hər bir əsər sadəcə vizual təsvir deyil, həm də Azərbaycanın zəngin mədəni irsinin sənədləşdirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Rəssamın yaradıcılıq irsində mənzərə janrı, xüsusilə də Naxçıvan memarlıq abidələrinin təsvir olunduğu mənzərələri xüsusi yer tutur. Bu qəbildən olan əsərlərdə Naxçıvanın qədim yaşayış məskənləri və tarixi abidələri yeni bədii təfəkkür işığında təqdim olunur.*

*C.İsmayılovun "Naxçıvan Atabəylər dövründə", "Möminə xatun türbəsi", "Aza körpüsü" və s. kimi əsərləri onun tarixin dərin qatlarına nüfuz etmək bacarığının bariz göstəricisidir. Rəssam bu mövzular üzərində işləyərkən həm bir sənətkar, həm də bir tədqiqatçı kimi çıxış edir. Bu baxımdan, C. İsmayılovun yaradıcılığının tədqiqi həm müasir rəssamlıq sənətimizin inkişaf dinamikasını izləmək, həm də memarlıq irsimizin təsviri sənətdəki bədii interpretasiyasını dəyərləndirmək baxımından böyük aktuallıq kəsb edir.*

***Açar sözlər:*** *Naxçıvan, rəssam, Cavid İsmayılov, memarlıq abidələri*

## GİRİŞ

Naxçıvan Muxtar Respublikasının Əməkdar Rəssamı Cavid İsmayılovun sənətində janr müxtəlifliyi, rəng zənginliyi onun sənətkar təfəkkürünün çevikliyi ilə paralel şəkildə inkişaf edərək, əsərlərində öz əksini tapmışdır.

Məlumat üçün bildirək ki, C.İsmayılov 1978-ci ildə Bakı şəhərində anadan olmuşdur [6, s. 71]. Çoxşaxəli yaradıcılığı ilə diqqət çəkən rəssam müxtəlif mövzu, janr və təsvir vasitələrinə müraciət edərək fərqli sənət axtarışları aparmış, fərdi üslubunu formalaşdırmışdır. Məhz bu xüsusiyyətlər onun sənətini həm məzmun, həm də forma baxımından diqqətəlayiq edir. Sənətşünas Ziyadxan Əliyevin rəssam barəsində yazdığı məqalədə oxuyuruq: "Cavid İsmayılov rəngkarlığının cəlbedici mayasını onun istənilən mövzulu–müxtəlif janrlı əsərlərindəki estetikanın gerçəkliyə bədii münasibətdə nümayiş etdirdiyi "müəllif səmimiliyi" təşkil edir. Məhz əsərlərində kiməsə bənzəməkdən və yaxud da nələrisə təqlid etməkdən uzaq olan səmimilikdən qaynaqlanan estetikada onun özünəməxsusluğunu şərtləndirən məziyyətlər duyulmaqdadır" [2].

C.İsmayılovun milli dəyərlərə olan bağlılığı və bu dəyərləri öz əsərlərində qoruyub saxlamaq arzusu onun sənətkar mövqeyini təyin edən digər bir amildir. Belə ki, rəssamın əsərlərində milli kimliyimizin rəmzi sayılan komponentlərdən olan musiqi alətlərimiz, milli rəqslərimizdən fraqmentlər, milli adətlərimizdən səhnələr öz əksini tapmışdır. Rəssam eyni zamanda, Azərbaycan təsviri sənətində Naxçıvan memarlıq irsinin əks olunması ənənəsinə sadiq qalaraq, əsərlərində tarixi abidələrin təsvirini də ustalıqla nümayiş etdirmişdir. Məhz bu xüsusiyyətlər rəssamın sənət fenomeni kimi tədqiq olunmasına zəmin yaradır.

**ƏSAS HİSSƏ**

C.İsmayılovun "Naxçıvan Atabəylər dövründə" adlı əsəri Atabəylər dövlətinin siyasi və mədəni yüksəliş dövrünü əks etdirən təsirli bir tarixi kompozisiyadır. Rəssam Naxçıvan şəhərinin XII əsrə aid canlı atmosferini, Möminə xatun türbə kompleksini və onun ətrafında toplanmış insanların həyat ritmini geniş rəng dili ilə canlandırmışdır. Əsər həm memarlıq abidəsinin monumental tarixini, həm də orta əsr şəhər mənzərəsinin dinamikasını paralel şəkildə təqdim etməsi ilə diqqət çəkir (Şəkil 1).

Tablonun kompozisiya mərkəzində Möminə xatun türbə kompleksinin əsas tikililərindən biri olan Cümə məscidi dayanmışdır. Rəssam məscidin geniş tağlarını, sütunvari dayaqlarını və qırmızımtıl çalarlı kərpic fakturasını xüsusi incəliklə rəsm etmişdir. Məscidin günbəzinə doğru yüksələn dekorativ qatlar rəssam tərəfindən hərəkətli fırça vuruşları ilə təsvir edilmişdir. Memarlıq formasının bu qədər diqqətlə işlənməsi Atabəylər dövrünün memarlıq dəsti-xəttini, həndəsi ornamentallığını, sərt ama bir o qədər də estetik möhtəşəmliyinin birliyini göstərir. Əsərdə kompleksin türbə hissəsi və qoşa minarəli baştağ isə daha açıq tonlarla işıqlandırılaraq sadə silüet təsiri yaratmışdır.



**Şəkil 1.** "Naxçıvan Atabəylər dövründə"

C.İsmayılovun bu əsəri yalnız memarlıq kompleksinin təsviri ilə məhdudlaşmır. Əsər həm də süjetli məişət janrının xüsusiyyətlərini özündə ehtiva edir. Bu ikili yanaşma əsərin estetik gücünü daha da artırır. Belə ki, kompozisiyanın ön planında geniş bir məişət-bazar səhnəsi qurulmuşdur. Qeyd edək ki, o dövrdə inşa olunmuş memarlıq tikilisi təkcə dini funksiyaya malik deyildi, həm də ictimai həyatın mərkəzi idi. Rəssam tarixi məkanda baş verən gündəlik həyat səhnəsini ardıcıl şəkildə canlandıraraq əsəri bir növ hadisə axını ilə zəngin şəkildə formalaşdırmışdır. Yoldan keçən dəvə karvanı, ticarətlə məşğul olan və əyləşib söhbət edən insanların geyim üslubu və s. kimi detallar dövrün bütün atributlarını dolğun şəkildə əks etdirir. Fiqurlar arasındakı dialoq, jestlər süjetin dinamikasını artırır. Beləliklə, əsər həm tarixi-memarlıq panoraması, həm də süjetli məişət səhnəsi kimi yadda qalır və Atabəylər dövrü Naxçıvanın sənətkarlıq, ictimai həyat mənzərəsini yüksək səviyyədə ümumiləşdirən monumental təsvir kimi çıxış edir.

C.İsmayılovun təsviri sənətdə Naxçıvan memarlıq abidələrinin bədii interpretasiyası istiqamətində ərsəyə gətirdiyi əsərlərindən biri də "Möminə xatun türbəsi" adlanır. Rəssamın bu əsəri orta əsr Naxçıvan memarlıq sənətinin müasir rəng dili ilə mükəmməl şərhi kimi diqqəti cəlb edir. Əsərin kompozisiya quruluşu, rəng zənginliyi, həmçinin ipressionizm üslubuna bir qədər yaxın olması onun təhlilə cəlb edilməsini vacib edən  mühüm amillərdəndir (Şəkil 2).



**Şəkil 2.** "Möminə xatun türbəsi"

Şaquli kompozisiyanın mərkəzində monumental həcmli Möminə xatun türbəsi dayanır. Türbənin kompozisiyada dominant mövqeyi onun tarixi və mədəni əhəmiyyətini vurğulayır. Abidəni ağac kütlələrinin arasından yarıqapalı vəziyyətdə görüntüyə gətirən rəssam onu təbiət elementləri ilə vəhdət şəklində əks etdirmişdir. Rəngarəng yarpaq detalları abidəni çərçivəyə alaraq əsərin dərinliyini formalaşdırmışdır. Lakin bu dekorativ quruluşa baxmayaraq rəssam abidənin konstruktiv bütövlüyünü qorumağı bacarmışdır. İmpasto texnikasının ifadə imkanlarından istifadə edən rəssam rəng qatlarını qalın və ardıcıl tətbiq etmiş, işıq-kölgə münasibətlərini boya fakturası vasitəsilə önə çıxarmışdır ki, bu da rəssamın fərdi üslubuna xas olan əsas göstəricilərdəndir. Əsərdə sarı, qırmızı, mavi, bənövşəyi kimi rənglərin intensiv şəkildə tətbiqi ona dinamik təsir gücü verir. Qeyd etmək lazımdır ki, rəssamın ani təəssüratını ön plana çıxarması, fırça vuruşlarının istiqamətli olması, rəng oynaqlığı və s. kimi texniki və estetik ifadə vasitələri onun öz əsərinə impressionist rəssam kimi yanaşmasını vurğulayır.

Abidənin məkana görə planı və həcm quruluşu dolğun şəkildə təsvir olunub. Rəssam türbənin giriş qapısı olan şərq üzünü görüntüyə gətirmiş, onun fasad bəzəklərini, firuzəyi kaşı elementlərinin ritmli düzülüşünü tikilinin memarlıq quruluşunun əsas vurğusuna çevirmişdir. Fasad boyunca yerləşən bu dekorativ elementlər kontur xəttləri vasitəsilə vurğulanaraq ümumi səthdən ayrılmışdır.

C.İsmayılovun əsərləri arasında doğulduğu Ordubad rayonunun təbii və memarlıq mühitini əks etdirən plenar rəsmləri də az deyil. Rəssamın bu əsərləri onun yaşadığı regionun memarlıq tikililərinin rəsm əsərləri vasitəsilə sənədləşdirilməsi istiqamətində atdığı mühüm addımın nəticələridir. Ordubadın yaşıl təbiəti və tarixi memarlıq nümunələri C. İsmayılov üçün geniş müşahidə və tədqiqat imkanı yaratmışdır. Bu baxımdan Aza kənd ilə Darkəndi birləşdirən tarixi körpünün yerləşdiyi məkanın təsviri olan "Aza körpüsü" əsəri rəssamın yaradıcılığında xüsusi əhəmiyyətə malikdir. Məlumat üçün qeyd edək ki, XVII əsrə aid olan bu körpü vaxtilə mühüm ticarət-karvan yolu üzərində yerləşmiş, Böyük İpək yolu ilə şərqdən qərbə və əksinə hərəkət edən ticarət karvanlarının işini asanlaşdırmaq üçün inşa edilmişdir [1, s. 186].



**Şəkil 3.** “Aza körpüsü”

Əsərdə beş aşırımlı körpü yalnız memarlıq abidəsi kimi deyil, sosial və mədəni həyatın göstəricisi kimi təqdim olunmuşdur. Belə ki, çoxplanlı kompozisiyada körpü əsərin əsas struktur elementi kimi vurğulansa da, diqqətimizi çəkən digər bir detal körpünün altından axan Gilançayda çimən və istirahət edən məktəblilərin təsviridir. Körpünün ətrafında baş verən bu məişət səhnəsi əsərə hərəkət bəxş edir. Məhz buna görə də tikili əsərdə sabit obyekt deyil, sosial həyatın aktiv elementi kimi dərk edilir, onun yerləşdiyi məkanın isə istifadədə olan bir mühit olduğu göstərilir (Şəkil 3).

C. İsmayılov “Əshabi-Kəhf mağarası” əsəri ilə yalnız tarixi obyektin görüntüsünü deyil, eyni zamanda onun ziyarət məkanı kimi mənəvi mahiyyətini də sənət dilində əks etdirmişdir. Məlumat üçün bildirək ki, şərqin ən məşhur mağaralarından, eyni zamanda Azərbaycanın ən böyük pirlərindən olan bu tarixi yeri bir çox rəssam öz əsərlərində təsvir etmişlər (Şəkil 4).



**Şəkil 4.** “Əshabi-Kəhf mağarası”

C. İsmayılov əsəri üçün baxış bucağını dini-mədəni abidə kompleksinin damcıxana adlanan mağara hissəsindən seçmişdir. Bu mövqeyin qeyri-ənənəvi olmasına baxmayaraq işıq-kölgə balansı, realist detallar vasitəsilə məkan və mənəvi dəyərlərin vəhdəti dolğun şəkildə əks olunmuşdur. Pastel tonlu əsərdə mağaranın daxili hissəsi qaranlıq şəkildə təsvir edilsə də, giriş hissənin işıqlı təqdimatı kompozisiyada güclü kontrast yaratmış, bu isə öz növbəsində əsərə məkan dərinliyi bəxş etmişdir. Rəssam işığı qaranlıqdan tədricən aydınlığa doğru keçirməklə tamaşaçının baxışını təbii şəkildə pirə doğru yönəltməyi hədəfləmişdir. Beləliklə, mağaranın iç məkanı ilə açıq məkan arasında yaradılan bu vizual qarşıdurma kompozisiyanın əsas struktur prinsipinə çevrilmişdir. Mağaranın səthlərində

həm təbiətin, həm də insan əlinin açdığı böyük oyuqların quruluş xüsusiyyətləri dəqiq müşahidə olunmuş, qaya parçalarının kobud və təbii quruluşu inandırıcı şəkildə rəsm edilmişdir.

**YEKUN NƏTİCƏ**

Aparılan tədqiqat və təhlillər göstərir ki, C.İsmayılovun yaradıcılığında Naxçıvanın memarlıq irsi sadəcə bir mövzu deyil, həm də müəllifin yaradıcılıq fəlsəfəsinin əsasını təşkil edən bir xəttdir. Onun əsərləri Naxçıvan memarlıq məktəbinin, xüsusilə də Əcəmi Naxçıvani irsinin müasir boyakarlıq sənətində təbliği baxımından əvəzsiz mənbədir. Rəssamın bu sahədə gördüyü işlərin tədqiqi Azərbaycan təsviri sənət tarixinə yeni töhfələr verməklə yanaşı, memarlıq irsimizin rənglərin dili ilə gələcək nəsillərə ötürülməsi baxımından da böyük aktuallıq kəsb edir.

## ƏDƏBİYYAT

1. Baxşəliyev, V. Quliyeva, F. Naxçıvanın tarixi abidələri / V.Baxşəliyev, F.Quliyeva. - Bakı: Nurlan, - 2017. - 212 s.
2. Əliyev, Z. Bədii improvizələrin işığında // Mədəniyyət. - 2021, 14 iyul.
3. Əliyev, Z. Rəng qatının ovqat yaradıcılığı // Kaspi. - 2020, 26 dekabr.
4. İsmayılov, C. Naxçıvan rəssamlarının yaradıcılığında ənənə və müasirlik / C.İsmayılov.- Naxçıvan: Əcəmi, - 2023. - 192 s.
5. Qasımov, C. Rəssamlıq sənətimizdə seçilən imza // 525-ci qəzet. - 2021, 8 sentyabr.
6. Naxçıvan rəssamlarının ensiklopediyası / Naxçıvan: Əcəmi, - 2022. - 158 s.

## ARCHITECTURAL MONUMENTS OF NAKHCHIVAN IN THE WORKS OF JAVID ISMAYILOV

**Sh.Sh. Zalova**

The contemporary landscape of Azerbaijani fine arts is remarkably rich in terms of the diversity of genre and stylistic explorations, as well as the synthesis of national traditions with modern conceptual approaches. One of the artists distinguished by his unique creative style and thematic breadth in this evolutionary process is Javid Ismayilov, Honored Artist of the Nakhchivan Autonomous Republic. Encompassing various genres such as portrait, landscape, genre painting, and battle pieces, the artist's work embodies the multifaceted nature of the modern Azerbaijani school of painting.

The core of Javid Ismayilov’s artistic philosophy is rooted in a commitment to the historical memory and national identity of the people. Each work from his brush is not merely a visual representation but also holds exceptional significance in terms of documenting Azerbaijan's rich cultural heritage. Within the artist's creative legacy, the landscape genre particularly landscapes depicting the architectural monuments of Nakhchivan occupies a special place. In such works, the ancient settlements and historical monuments of Nakhchivan are presented through the prism of a new artistic consciousness.

Paintings such as "Nakhchivan during the Atabey Era," "Momine Khatun Mausoleum," and "Aza Bridge" are clear indicators of his ability to penetrate the deep layers of history. While working on these themes, Ismayilov acts as both an artist and a researcher. From this perspective, the study of Javid Ismayilov’s oeuvre is of great relevance both for tracking the developmental dynamics of our modern painting and for evaluating the artistic interpretation of our architectural heritage within the fine arts.

**Keywords:** *Nakhchivan, artist, Javid Ismayilov, architectural monuments*

# АРХИТЕКТУРНЫЕ ПАМЯТНИКИ НАХЧЫВАНА В ТВОРЧЕСТВЕ ДЖАВИДА ИСМАИЛОВА

**Ш.Ш. Залова**

Современная панорама изобразительного искусства Азербайджана необычайно богата с точки зрения разнообразия жанровых и стилистических поисков, а также синтеза национальных традиций с современными концептуальными подходами. Одним из мастеров, отличающихся индивидуальным творческим почерком и тематической широтой в этом процессе развития, является Заслуженный художник Нахчыванской Автономной Республики Джавид Исмаилов. Охватывая такие различные жанры, как портрет, пейзаж, бытовой и батальный жанры, творчество художника воплощает в себе многогранную деятельность современной азербайджанской школы живописи.

Основу художественной философии Дж. Исмаилова составляет приверженность исторической памяти и национальному самосознанию народа. Каждое произведение, вышедшее из-под его кисти, является не просто визуальным изображением, но и имеет исключительное значение с точки зрения документации богатого культурного наследия Азербайджана. В творческом наследии художника особое место занимает жанр пейзажа, в частности, пейзажи с изображением архитектурных памятников Нахчывана. В подобных произведениях древние поселения и исторические памятники Нахчывана представлены в свете нового художественного мышления.

Такие полотна Дж. Исмаилова, как «Нахчыван в эпоху Атабеков», «Мавзолей Мominехатун», «Мост Аза», являются ярким показателем его способности проникать в глубокие пласты истории. Работая над этими темами, художник выступает одновременно и как творец, и как исследователь. В этом контексте исследование творчества Джавида Исмаилова представляет большую актуальность как для отслеживания динамики развития нашей современной живописи, так и для оценки художественной интерпретации нашего архитектурного наследия в изобразительном искусстве.

**Ключевые слова:** *Нахчыван, художник, Джавид Исмаилов, памятники архитектуры*